JOURNAL OF IQRO – ЖУРНАЛ ИҚРО – IQRO JURNALI
ISSN: 2181-4341, IMPACT FACTOR ( RESEARCH BIB ) – 7,245, SJIF – 5,431
SPECIAL ISSUE, AUGUST,2024 YEAR

Andijon davlat chet tillari instituti, Phd - Qozoqboyeva Dilfuza Ilhomjon qizi taqrizi ostida

**Ulduz Fərhad qızı QƏHRƏMANOVA**
Filologiya üzrə fəlsəfə doktoru
Azərbaycan Dövlət Pedaqoji Universiteti,
Ədəbiyyat kafedrasında baş müəllim
Email: ulduzkahraman1@gmail.com
Orcid İD: 0009-0003-4418-9319
**Ulduz Farhad Kahramanova**
Idyllic and satirical works

---

# İDILLIK VƏ SATIRIK ƏSƏRLƏR

**Annotasiya:**Məqalədə idillik əsərlərlə, satirik əsərlərin nəzəriyyəsi geniş təhlil edilmişdir. Həmçinin həmin təhlillərdə idillik əsərlərlə satirik əsərlər arasındakı fərqlər də izah edilmişdir.

**Açar sözlər:** idillik əsərlər, satirik əsərlər, tənqidi fikir, tərənnüm, Feokrit

**SUMMARY**

If the lived social life style makes the writers dissatisfied, the works written in this type are called satirical works. No, if, on the contrary, the social customs and way of life fascinate and satisfy the writers, if the writers are satisfied with this life, then these works are considered as idyllic works. Idyllia comes from the Greek word "eidyllion" - "plate", "picture", "little verse". Idyllic eclogue is also called.

In Idyllia, people's daily life and social customs, their life in the arms of nature, in the bosom of the mountains are praised and described. This genre originated in ancient times. Idylls are works that poetically describe the simple life, customs and everyday life of people living in the bosom of nature, away from social struggle and city life. The heroes of the idyll are: shepherds, peasants, simple, hospitable, compassionate people. This described household was idealized by poets.

Idylls or eclogues were invented based on the ancient poem, connected with the name of Theocritus. According to the meaning of the word idyll in Greek, it means a scene, a board, a scene. The idylls of Theocritus are considered to be the only poet of this type of poetry. Although he did not write this type of poetry, Theocritus brought the idyll closer to nature and perfected it. The subject of this type of poetry is not only shepherds, but also all classes of people who are close to nature.

Satire is only revealing, murderous, sharp, sarcastic laughter. A satirical laugh is a deep and serious laugh. The artist's hatred is felt in the sharp, murderous laugh. Because in satire, the story told by the artist does not actually cause laughter. Simply, the story told by the artist has reached such a level that the environment and people have deteriorated so much that the artist has a sarcastic attitude towards them and a sharp laugh is generated by the artist. In fact, the story told by the artist is a sad situation, a criticism.

**Key words:** idyll works, satirical works, critical thought, hymn, Theocritus

Əsl satira zamanın aynasıdır, tarixi dövrün bədii salnaməsidir. Satirik üslub üçün tərənnüm deyil, təsvir, təhkiyə əsasdır. Təsvirsiz, təhkiyəsiz, təfərrüatsız satira yoxdur. Ədəbiyyatın bütün janrlarında özünü göstərən satira günümüzə qədər davam etməkdədir. Satirik poeziyanın özü şeirdir, nəzm parçasıdır. Lakin lirik şeirlə satirik şeirin hədəfləri fərqlidir. Belə ki:

- Lirik şeirdə tərənnüm, obrazlılıq, məcazilik, ahəngdarlıq əsasdırsa, satirik yaradıcılıq üslubunda bədii gülüş, tənqidi fikir əsasdır.
- Real olmayan şeir, bədii əsər satira üçün xarakterik sayıla bilməz.

Yaşanılan ictimai həyat tərzi yazıçıları narazı salırsa, bu tipdə yazılan əsərlərə **satirik əsərlər** deyilir. Yox, əgər bunun tərsinə olaraq ictimai adətlər, həyat tərzi yazıçıları məftun və məmnun edirsə, yazıçılar bu həyatdan razı qalırlarsa, bu əsərlər **idillik əsərlər** hesab edilir. İdilliya yunanca "eidyllion"-"lövhə", "şəkil", "balaca mənzumə" sözündəndir. İdilliya ekloqa da deyirlər.

İdilliyada insanların məişətləri və ictimai adətləri, təbiət qucağındakı, dağlar qoynundakı həyatı tərənnüm və təsvir olunur. Bu janr hələ qədim dövrlərdə yaranmışdır. İctimai mübarizədən və şəhər həyatından uzaq, təbiət qoynunda yaşayan insanların sadə həyatına, adət və məişətinə şairanə bir şəkildə təsvir edən əsərlərə idilliya deyirlər. İdilliyanın qəhrəmanları: çobanlar, kəndlilər, sadə, qonaqcıl, rəhmdil insanlar olur. Təsvir edilən bu məişət şairlər tərəfindən idealizə edilirdi.

İdilliya kənd və kəndli həyatını tərənnüm edən əsərlərə deyilir. Qədim yunan ədəbiyyatında idilliyanın banisi Feokrit sayılır. Roma ədəbiyyatında Vergili (e.ə.I əsr) Avropa ədəbiyyatında Höte tərəfindən "German və Doroteya" adlı bir idilliya yazılmışdır. Azərbaycan ədəbiyyatında Abdullabəy Divanbəyoğlunun "Can yanğısı" və Abdulla Şaiqin "Köç" kimi əsərləri idillik hekayələrdəndir.

Belinskinin "Ədəbiyyatın növlərə və şəkillərə bölünməsi" adlı məqaləsinə istinadən demək mümkündür ki, idilliya və ya ekloqa da epik növə mənsubdur ki, XVIII əsr bundan çobani və ya bukolik deyilən xüsusi bir şeir növü meydana gətirmişdir. O zaman mütləq istəyirdilər ki, idilliya insanların cəmiyyət halında yaşamaqdan əvvəlki dövründə olan çobanların həyatını tərənnüm etsin. Guya o zaman insan cəmiyyət yaratmamışdan öncə quzu kimi məsum, qoyun kimi mehriban, göyərçin kimi zərif imişlər. Bu çobani şeirin səciyyəvi əlamətləri:

- Ürəkvuran, həddən artıq şirin həssaslıq
- Məhəbbət duyğuları

İdilliya və ya ekloqanı qədim şeirə əsaslanaraq Feokritin adı ilə əlaqələndirib uydurmuşdular. Yunanlarda idilliya sözün mənasına görə mənzərə, lövhə, səhnə deməkdir. Bu şeir növünün yeganə şairi Feokritin idilliyaları hesab edilir. Hər nə qədər bu şeir növünü o yazmamışsa da, lakin Feokrit idilliyanı təbiətə daha artıq yaxınlaşdırıb mükəmməlləşdirmişdir. Bu şeir növünün mövzusu yalnız çobanlar deyil, təbiətə yaxın olan bütün insan təbəqələri də təşkil edə bilər.

Satira isə ancaq ifşaedici, öldürücü, kəskin, kinayəli gülüşdür. Satirik gülüş dərin və ciddi gülüşdür. Kəskin, öldürücü gülüşdə sənətkarın nifrəti hiss olunur. Çünki satirada sənətkarın danışdığı əhvalatda əslində gülüş doğuran heç nə olmur. Sadəcə olaraq sənətkarın danışdığı əhvalat o dərəcəyə çatıb ki, mühit, insanlar o qədər pisləşib ki, sənətkar onlara kinayəli münasibət bəsləyir və sənətkar tərəfindən kəskin gülüş yaranır. Əslində isə sənətkarın danışdığı əhvalat acınacaqlı vəziyyət, tənqiddir.

Göründüyü kimi, satira cəmiyyətlə fasiləsiz mübarizə aparan bədii gülüşdür. Yazıçı satira yazarkən qəzəblə hər hansı bir ictimai hadisəni qələmə alır, nifrətini acı gülüş yolu ilə verir. Deməli, cəmiyyətin müxtəlif dairələrinin sənətkar tərəfindən tənqidi ilə bağlı yaranan gülüş satiradır, kəskin gülüşdür. Çünki satira iylənmiş, çürümüş, müalicəsi mümkün olmayan sosial eyibləri baltalayıb atmaq yolunu seçməklə ictimai qüsurlarla, mədəni geriliyin fəsadları ilə, mənəvi şikəstlik ilə mübarizə aparır. Satirik ədib insanın ictimai qüsurunu, eybəcər tərəfini qabartmaqla cəmiyyətdəki ictimai problemə işıq salmış olur. Əsl satirada mübaliğə həmişə olur. Əslində satira cəmiyyəti mənəvi-əxlaqi kamilləşməyə aparan bir yoldur. Cəmiyyəti təmizləmək baxımından satiranı əvəz edəcək əhəmiyyətli yol bəlkə də yoxdur.

Satirik gülüş, gerilik və nöqsanlar əleyhinə çevrilmiş silahdır, cəmiyyətin demokratikləşməsinə və tərəqqisinə kömək edən güclü vasitədir. Satira müəllifin dünyagörüşünün təzahür forması, həyatı dərketmə üsul və vasitələrindən biridir. Satira bütün zamanların təzahür formasıdır. Satira bədii gülüşdür, eybəcərliyin ifşasıdır. Satirik əsərlərdə həyat həqiqətləri satirik gülüş fonunda təqdim olunur.

Tənqid satirik gülüşün nüvəsini təşkil edir. Lakin məzmununda tənqid olan hər cür gülüşdə özlüyündə dərin ictimai satira deyil. Ədəbiyyatşünaslıqda ancaq ifşaedici gülüşə satira deyilir. Satira sosial bəlalardan, hər cür mənəvi-əxlaqi naqislikdən yaxa qurtarmaq vasitəsi, qüdrətli mübarizə üsuludur.

Satiranın yaranması və inkişafı isə bağlıdır:

- Demokratik ideyalarla
- Realizmin inkişafı ilə, belə ki, satiranı tənqidi realizmdən ayrı düşünmək mümkün deyil.

Satira cəmiyyətdən narazı qalanların, hüququ tapdalanları mənəvi cəhətdən qoruyan, onların yaralarına məlhəm olan bədii priyomdur. Satira bəşər tarixində mənəvi ucalıq, firavanlıq simvoludur. Satira latınca "qarışıq" (smes), "hər şey" mənası verən kəskin, ifşaedici, bütöv ictimai epoxaya, onun siyasi-mənəvi arsenalına qarşı yönəlmiş məhvedici gülüşdür. Satirik əsər, satirik gülüş həyat hadisələrindən doğur. Belə ki, satira varlığın bədii əksini verən, mənfi cəhətlərini, mahiyyətini açan, ifşa edən komik növdür. Köhnə həyatla mübarizədə satiranın əhəmiyyəti böyükdür. Sənətkar cəmiyyətdəki eyibləri, maneələri, zülmü, cəhaləti tənqid və ifşa etməklə qələmə aldığı həyatı ya islah, ya da rədd edir.

Satirada birbaşa, açıq tənqiddən daha çox Ezop dilindən istifadə olunur, dolayı tənqidə, eyhamlı, kinayəli sözə geniş meydan verilir. Satirik əsərlərdə pafos, başqa sözlə desək, ictimai publisistik istiqamət daha güclüdür. Bütün satirik əsərlərdə bədii üslubdan daha çox ictimai-publisistik istiqamət daha qabarıq şəkildə özünü göstərir. Əslində satira öldürücü, məhvedici gülüş deyil. Satiranın öldürücü, məhvedici gülüş kimi xarakterizə edilməsi Sovet ideologiyasının təsirindən irəli gəlir. Bu fikir də tamamilə yanlışdır. Çünki sənətkar əslində kimisə öldürmür. Satira ancaq tərbiyəedici gülüşdür.

Ədəbiyyat:

1. Abi Aydın "Türkiyə ədəbiyyatı tarixi, Bakı: Bakı Universiteti nəşriyyatı, 2007

2. Abıyev A., "Türk ədəbiyyatında satira", Bakı, Elm, 1991

3. Azərbaycan ədəbiyyatı tarixi, AMEA-nın Ədəbiyyat İnstitutu, 6 cildlik, IV cild, Bakı, 2011

4. Ağazadə Yədulla Bəbir oğlu, Azərbaycan ədəbiyyatında satirik poeziyanın təşəkkülü və inkişafı, f.ü.e.dok. dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya, Bakı, 2013

5. Babayev Baba Maqsud oğlu, Azərbaycan realist nəsrində satiranın təşəkkülü, inkişaf mərhələləri və problemləri (1850-1920), filologiya elmləri doktoru alimlik dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya, Bakı, 2012.

6. Cəlal Mir, Xəlilov Pənah, "Ədəbiyyatşünaslığın əsasları", Bakı, Çaşıoğlu, 2005

7. Əlimirzəyev Xalid, "Ədəbiyyatşünaslığın elmi-nəzəri əsasları", Bakı, 2008

8. Əliyev Məmməd, "Ədəbiyyat nəzəriyyəsinin əsasları", Bakı, 2000

9. Əliyev Rafiq, "Ədəbiyyatşünaslığın əsasları", Bakı, 2001

10. Hacıyev Abbas, "Ədəbiyyat nəzəriyyəsi", Bakı, 1999

11. Xəndan Cəfər, "Ədəbiyyat nəzəriyyəsi", Bakı, 1958

12. Qasımzadə Feyzulla, XIX əsr Azərbaycan ədəbiyyatı tarixi, Bakı, 2019

13. Qəhrəmanova Ulduz, M.Ə.Sabir və klassik irs, f.ü.f.d.dissertasiyası, Bakı, 2015

14.Qəzənfər Kazımov, Bədii ədəbiyyatda komizmun üsulları, Bakı, Maarif, 1987

15. Mirəhmədov Əziz, "Ədəbiyyatşünaslıq ensiklopedik lüğəti", Bakı, Azərbaycan Elmlər Akademiyası, 1998

16. Rəfili Mikayıl, "Ədəbiyyat nəzəriyyəsi", Bakı, 1958

17. Şəmsizadə Nizaməddin , "Ədəbiyyat nəzəriyyəsi", Bakı, 2012

18. Hacıyev Tofiq, Satira dili, Bakı, ADU nəşri, 1975

19. Hüseynov F.E.Satirik gülüşün qüdrəti, Bakı, Yazıçı, 1982

20. Məmmədov K, XIX əsr Azərbaycan şeirində satira, Bakı, Elm, 1975

21.Məmmədov K. XX əsr Azərbaycan gülüşü, Bakı: Yazıçı, 1989